**Xalq qəzeti.** - 2024. - 5 mart. - № 50.- S. 6.

# Suveren dövlətin hüquqi toxunulmazlığı

## (Azərbaycan nümunəsində)

## II Məqalə

*Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir.*
**Heydər Əliyev,**
**Ümummilli lider**

**Füzuli Qurbanov,**
XQ-nin analitiki, fəlsəfə elmləri doktoru

### Cənubi Qafqaz- geosiyasi savaş meydanı

I məqalədə müstəqil dövlətin hüquqi toxunulmazlığının yalnız güclü dövlət qurmaqla təmin olunduğu barədə tezisimizi regional geosiyasətin özəllikləri fonunda bir qədər geniş izah etməyə çalışaq. Məsələ ondadır ki, XXI əsrin ilk onilliklərində belə bu problemin politoloji-nəzəri təhlili başa çatmamışdır. Əlbəttə, hər kəs anlayır ki, dövlət müstəqildirsə, ona toxunmamaq haqqında beynəlxalq hüquqda kifayət qədər aydın maddələr mövcuddur. O da sirr deyil ki, beynəlxalq təşkilatlar hər bir suveren dövlətin toxunulmaz olması üçün məsuliyyət daşıyırlar. Lakin məsələ reallığa gələndə nonsens xarakterli elə məsələlər meydana çıxır ki, hətta nəzəri olaraq həqiqət, obyektivlik və ədalətin harada olduğunu müəyyən etmək çətinləşir. Cənubi Qafqazla bağlı bir neçə nümunədə vurğulanan sonuncu fikri aydınlaşdıraq.

Məsələ ondan ibarətdir ki, praktik geosiyasətdə və siyasətdə böyük dövlətlərin nüfuz savaşı daim olmuşdur və olmaqdadır. Cənubi Qafqazla bağlı rəqabət daha kəskin və amansız olmuşdur. Qərb, Rusiya, İran və Türkiyə arasında bu məkanda üstünlük uğrunda mübarizə tarixin bütün dönəmlərində xüsusi məzmun almışdır. XX əsrin sonu-XXI əsrin əvvəllərində isə bu məsələ xeyli kəskin, riskli, qeyri-müəyyən və hərbi toqquşmalar ehtimalının artması fonunda daha qorxulu məzmun almışdır. Fəlsəfi, siyasi-nəzəri və hüquqi araşdırmaların analizi göstərir ki, hələlik vurğulanan böyük güclər arasında mübarizədə yeni çağırışların ruhuna uyğun situasiya formalaşmamışdır - hər bir güc mütləq üstünlük almağa can atmaqdadır. Bu məqamı da iki istiqamətdə özünü göstərən geosiyasi mübarizənin fonunda görmək olar.

### Regionda “geosiyasi zəlzələ xətti”

Birinci istiqaməti Qərb-Rusiya qarşıdurması təşkil edir. İki tərəfdən hər biri digərinin dominantlığını heç bir halda qəbul etməyəcək kimi görünür. Bu cür birtərəfli və geosiyasi qarşıdurmanı dərinləşdirmək mahiyyətli mübarizədə zərər görən kimlər olacaq? İlk növbədə, əlbəttə, Cənubi Qafqaz dövlətlərinin hüquqi toxunulmazlığı ziyan görəcək. Çünki böyük güclər onlardan istifadə edərək öz siyasətlərinin “obyektivliyini”, “regional maraqlara cavab verdiyini” və hətta “bölgəyə inkişaf, demokratiya, sülh gətirdiyini” əsaslandırmağa calışırlar.

Hazırda bu oyun ABŞ-Rusiya və Fransa-Rusiya istiqamətlərində daha da kəskinləşmişdir. Bu iki xəttin kəsişməsində əsas olaraq Ermənistan hüquqi toxunulmazlığını itirməkdədir. Səbəbi də ondan ibarətdir ki, Ermənistan artıq 30 ildən çoxdur ki, müstəqil güclü dövlət qurmaq kursunu dövrün tələblərinə uyğun müəyyən edə bilməmişdir və o, faktiki olaraq postsovet məkanının ən zəif dövlətidir. Burada nə iqtisadiyyat, nə demokratiya, nə də regional konstruktiv siyasət mövcuddur. Bu cür zəif dövlətçilik Ermənistanla yanaşı, regiondakı digər dövlətləri də qeyri-müəyyənliyə və risklərə sürükləyir. Ermənistan indi faktiki olaraq regional parçalanmanın “geosiyasi zəlzələ xətti”nin üstündədir.

İkinci istiqaməti İranın yarı üstüörtülü, yarı açıq surətdə Cənubi Qafqazda Türkiyə-Azərbaycan geosiyasi gücünə qarşı mübarizədən əl çəkməməsi təşkil edir. Bunu həm təhlükəsizlik, beynəlxalq layihələrdə iştirak, nəqliyyat-loqistika xidməti, həm də qarşılıqlı faydalı regional əməkdaşlıq platformalarında Tehranın mövqeyi təsdiq edir.

İranda Azərbaycan səfirliyinə qarşı terror edildi. O ölkədə yaşayan azərbaycanlıların hüquqları pozulmaqda davam edir. Türkiyənin qaz habı olması layihəsi konkret reallaşma mərhələsinə çatanda İran Prezidenti Rəisi bəyan etdi ki, İran dünyada təhlükəsiz ən böyük qaz habı yarada bilər. Bunlardan başqa, İranın rəsmi şəxsləri və siyasiləri zaman-zaman Azərbaycan haqqında qərəzli fikirlər irəli sürür, eyni zamanda, Cənubi Azərbaycanda yaşayan milyonlarla Azərbaycan türkünün haqlarından söz açılmasını qısqanclıqla qarşılayırlar.

Təbii ki, Cənubi Qafqazda üç müsəlman dövlətinin bu cür münasibətdə olması onların heç birinə fayda vermir. Lakin məsələnin ən pis tərəfi ondan ibarətdir ki, bu cür vəziyyətin nə üçün dövlətin hüquqi toxunulmazlığına və suverenliyinin tam təmin edilməsinə risklər yaratdığını rəsmi Tehran qəbul etmək istəmir. Hələ israrla "mən deyən olmalıdır!" məntiqi ilə zərər verir, özünün təhlükəsizliyi baxımından isə yerində sayır.

Burada geosiyasi baxımdan təzadlı və düşündürücü bir situasiya ilə qarşılaşırıq. Və sanki F. Fukuyamanın "güclü dövlət" anlamı ilə bir ziddiyyət özünü göstərir. Eyni zamanda, məsələ yalnız F. Fukuyamanın "güclü dövlət" anlayışının geosiyasi və siyasi-nəzəri anlamının praktiki funksional müstəvidə özünü göstərən ziddiyyətlərlə məhdudlaşmır. ABŞ, Avropa dövlətləri, Rusiya və İranın Cənubi Qafqazdakı fəaliyyətləri göstərir ki, beynəlxalq miqyasda qeyri-müəyyənliyi, qanunsuzluğu yalnız dövlətlərin zəif olması yaratmır. Həm də daha çox olaraq güclü dövlətlərin davranışları yaradır. Çünki onlar öz güclərinə arxalanaraq, müstəqil dövlətin hüquqlarını pozur, onların daxili işlərinə qarışırlar.

Belə çıxır ki, hansısa bir geosiyasi məqamda güclü və zəif dövlətlərin geosiyasi kontekstdə oxşar identikliyi vardır. Bu identiklik, təəssüf ki, müsbət anlamda deyildir - hər ikisi regional hüquqsuzluğa, müstəqilliyə, suverenliyə və toxunulmazlığa qarşı çalışa bilirlər. O halda F. Fukuyama və başqa filosof, sosioloq və politoloqların (məsələn, Çester Kroker) "zəif" dövlətlər və ya "yalançı" dövlətlər beynəlxalq nizamın vacib probleminə çevrilmişdir" kimi fikirləri real vəziyyəti yarımçıq ifadə etmiş kimi görünür. Xüsusilə, Cənubi Qafqazda bu problem müstəqil dövlətçilik, suverenlik və hüquqi toxunulmazlıq kontekstlərində çox ciddi əngəllərə yol açmaqdadır. Fikrimizi faktlarla izah edək.

### "İnforser": geosiyasi "qoçu"?

"İnforser" müxtəlif mənalar daşıyan termindir. Geosiyasi nəzəriyyələrdə bu anlayış dünya miqyasında nizam yaradan, faktiki olaraq qlobal miqyasda dövlətlərarası münasibətləri tənzimləyən dövlət və ya dövlətlər qrupunu ifadə edir. Bu mənada, "inforser" müsbət anlamdır. Lakin tədqiqatçılar XX əsrin sonu və XXI əsrin əvvəllərindən dünya üzrə real olaraq tənzimləyici inforser rolunu oynaya bilən gücün olmadığı haqqında tez-tez yazırlar. Onlar hesab edirlər ki, bu, ABŞ-ın liderlik mövqeyinin zəifləməsi ilə bağlıdır. Bununla yanaşı, həmin güclü dövlətlər müsbət anlamda tənzimləyici rolunu oynamamağa daha çox meyillidirlər. Onlar indi "inforser"in amerikan jarqonunda ifadə etdiyi "küçə qoçusu", "qanqster" anlamlarına daha çox uyğun gəlir. Yəni dünyada geosiyasi nizam-intizamı, dövlətlərin müstəqilliyinin və suverenliyinin təmin edilməsini "qoçuluq" üsulu ilə tənzimləməyə çalışırlar. Nəticədə bütövlükdə qlobal geosiyasi mühit kriminallaşır, obrazlı desək, dünyanı "qoçular idarə edir".

Məhz bu məqamda da güclü və zəif dövlətlər arasında geosiyasi kontekstdə fərqlər aradan qalxır - hər ikisi xaosa, hüquqsuzluğa rəvac verir və müstəqilliyə real təhlükə yaradır. ABŞ gücündən istifadə edib Ermənistanın qanunsuz davranışlarını müdafiə edəndə, Rusiya üstüörtülü rəsmi İrəvana arxa duranda, Fransa açıqca təcavüzkarı müdafiə edib ona silahlar satanda və İran "Ermənistan sərhədi qırmızı xəttimdir" deyəndə, eyni dərəcədə öz güclərini "qoçu" kimi tətbiq etməyə çalışırlar. Bütün bunların riskli və fəlakətli trayektoriyası isə üç Cənubi Qafqaz dövlətinin suverenliyi, hüquqi toxunulmazlığı və müstəqilliyinin "mümkün sərhədləri" üçün ciddi təhlükələr "zonasında kəsişir", bir-birilərini motivə edirlər.

Əlbəttə, bunlar paradoksdur, sağlam düşüncəyə ziddir. Lakin reallıqdır. Buna görə də Cənubi Qafqazda yerli dövlətlərin nə dərəcədə həqiqi anlamda güclü olmasını böyük güclərin istədiyi məsələsi açıqdır. Bizcə, onlar bunu nəinki istəmirlər, hətta müxtəlif bəhanələrlə qarşısını almağa çalışırlar.

Bütün bunların fonunda Azərbaycan Respublikasının həqiqi mənada güclü dövlətə çevrilməsi, hüquqi toxunulmazlığa nail olması və suverenliyini tam təmin etməsi tarixi qəhrəmanlıq, siyasi məharət və geosiyasi şücaət kimi görünür. Bakı bunlara necə nail olmuşdur?

Cənubi Qafqazın güclü dövləti - Azərbaycan zəif dövlətçiliklə güclü dövlətçiliyin Cənubi Qafqazda kəsişən geosiyasi ziddiyyətləri şəraitində güclü dövlət olmağı bacardı. Azərbaycanın zəif olması geosiyasi rəqiblərinin arzusudur. Bunun üçün imkanları daxilində çox sayda süni əngəllər də törətdilər. Buna qarşı ulu öndər Heydər Əliyev Cənubi Qafqazda güclü dövlət olmaq modelini qoydu. Yəni, Heydər Əliyev duyğularla deyil, strateji siyasi zəka və diplomatik məharətlə hərəkət edərək nəzəri səviyyədə "Güclü Azərbaycan konsepsiyas"ını yaratdı. Eyni zamanda, həmin konsepsiyanı özü eksklüziv formada praktiki fəaliyyətdə həyata keçirməyə başladı.

Güclü Azərbaycan müstəqil dövlətini yaratmaq mövcud tarixi mərhələdə olduqca çətin bir vəzifə idi. Çünki XX əsrdə Azərbaycan dövlətçiliyinin tarixi göstərir ki, Bakının hər hansı müstəqil və güclü olmaq cəhdinə qarşı yaxında və uzaqda olan bir sıra daha güclü dövlətlər müxtəlif təxribatlar hazırlayırlar. Həmin təxribatlar ölkəni və cəmiyyəti parçalamaqla yanaşı, dövləti kənar dağıdıcı təsirlər burulğanına salmaq planlarını da ehtiva edir. Bununla da güclü Azərbaycan yaratmağın qarşısına üç səviyyədə problemlər çıxarırlar.

Birinci səviyyə, cəmiyyəti daxildən müxtəlif sosial-psixoloji faktorlara görə fraqmentləşdirmək və mümkün olsa, uzun müddət qala biləcək formada parçalamaq. Bunun üçün informasion və ideoloji təsirlərə üstünlük verirlər. İnformasiya təsirlərində aparıcı yeri Azərbaycanın ölkə, dövlət, cəmiyyət kimi müasir tələblərə cavab verməyən xüsusiyyətlərə malik məkan kimi təqdimatı tutur. Bu sırada həm mədəniyyət, həm də məzhəb

faktorlarından süni istifadə etməyə çalışırlar. Ümumilikdə, hər iki üsulu birləşdirən məqam Azərbaycan cəmiyyətini müasir mədəniyyəti olmayan, həqiqi siyasi liderlər və yüksək səviyyəli ziyalılar yetişdirə bilməyən, özünüinkişaf etdirmək potensialı zəif olan və öz tarixini müəyyənləşdirə bilməyən toplum qismində təqdim etməyə çalışırlar.

Ulu öndər bütün bu süni əngəllərə, təhlükəli informasiyalara və təxribat xarakterli siyasi-ideoloji fəaliyyətlərə qarşı çox səmərəli və nəticə verən formada mübarizə apardı. Qısa müddətdə Azərbaycanın dostu olmaq istəməyən dairələr qarşılarında güclü lideri, siyasi müstəqilliyə xidmət edən idarəetmə institutlarını, cəmiyyəti birləşdirən azərbaycançılıq ideologiyasını, ölkənin hərtərəfli və uzunmüddətli inkişafını təmin edəcək strateji proqramları (məsələn, neft strategiyası, sosial-iqtisadi inkişaf strategiyası, güclü iqtisadiyyatın formalaşmasını stumullaşdıracaq infrastrukturun yaradılmasını, cəmiyyəti mədəniyyət aspektində daxildən toparlayıb geridönməz inteqrasiya yoluna çıxaracaq multikulturalizm konsepsiyasını və s.) gördülər. Onların sırasında güclü ordu konsepti ayrıca yer tuturdu.

## “Güclü Azərbaycan” konsepsiyasının əsas şərtləri

Bununla Heydər Əliyev və dahi liderin siyasi varisi İlham Əliyev faktiki olaraq “Güclü Azərbaycan konsepsiyası”nın başlıca tərkib hissələrini dəqiq müəyyənləşdirərək güclü dövlət quruculuğunu davamlı tərəqqi məcrasına yönəldə bildilər. Yuxarıdakı təhlildən görünür ki, bu konsepsiyanın əsas sütunları aşağıdakılardır:

-Yeni güclü liderə malik olmaq;

- ərazi bütövlüyü və tam suverenliyi təmin edilmiş müstəqil siyasət yeridən dövlət formalaşdırmaq;
- dövlət idarəetməsinin səmərəliliyini artırmaqla müstəqil dövlətin qurulmasına xidmət edən mükəmməl və nəticəverici idarəetmə mexanizmləri hazırlamaq;
- güclü iqtisadi sistemin güclü dövlət quruculuğunun təməli olmasını təmin etmək;
- yeni enerji strategiyasının birbaşa milli maraqlara və milli təhlükəsizliyə xidmət edən forma, struktur və funksiyaya malik olmasını təmin etmək;
- azad vətəndaş cəmiyyətinin formalaşmasını təmin edəcək güclü və həmrəy toplum yaratmaq;
- güclü cəmiyyətlə güclü dövlətin bir-birini tamamlamasını multikultural dəyərlər əsasında təmin etmək;
- güclü ordu və güclü müdafiə sənayesi yaratmaqla ölkənin təhlükəsizliyinə nail olmaq.

Bu istiqamətlərin ayrılıqda hər biri və qarşılıqlı əlaqədə sistem olaraq Azərbaycanda güclü dövlət yaradılmasına xidmət etməkdədir. Məhz onların yekun təsiri sayəsində Azərbaycan müstəqiulliyini, hüquqi toxunulmazlığını davamlı inkişaf fonunda təmin etməyə nail oldu. Məsələnin bu aspekti üzərində geniş dayanmaq lazım gəlir.

**(ardı var)**